# Tahir KAZIMOV - 80

## Şərəfli yazıçı ömrü



Müasir Azərbaycan nəsri sürətlə dəyişən ədəbi mənzərəsi,plüralist mühiti, yeni poetik mündəricə və obrazlar sistemi ilə diqqət mərkəzindədir. Bu ədəbiyyat bir tərəfdən milli həyatı bütün yönləri ilə təcəssüm etdirməsi, digər tərəfdən bəhrələndiyi çeşidli ədəbi qaynaqlarla maraqlıdır. Bədii düşüncə ədəbi mövqeyini bu istiqamətdə formalaşdırdıqca, Azərbaycan yazıçılarının yaradıcılığı oxucular tərəfindən böyük rəğbətlə qarşılanır.

Azərbaycan ədəbiyyatının belə məhsuldar qələm sahiblərindən biri də tanınmış yazıçı, ssenarist, dramaturq Tahir Şirin oğlu Kazımovdur. Milli ədəbiyyatımızda ozünəməxsusdəst-xətti, üslubi keyfiyyətləri ilə seçilən bu istedadlı yazıçının səmərəli yaradıcılıq axtarışları çağdaş nəsrin tədqiqat obyektini yeni məzmunmündəricə, çeşidli mövzularla zənginləşdirmişdir.

### İlk yaradıcılıq uğurları

Tahir Kazımov 1942-ci il aprel ayının 27-də Cəbrayıl rayonunun Soltanlı kəndində müəllim ailəsində anadan olmuşdur. 1965-ci ildən kiçik oçerk və hekayələri iləoxucuların görüşünə gələn gənc ədib 1967-ci ildə "Ulduz" jurnalında əmək fəaliyyətinə başlamış, iki il sonra komsomolun Mərkəzi Komitəsinin təqdimatı ilə Azərbaycan SSR Daxili İşlər Nazirliyinə xidmətə göndərilmişdir. Onun 1970-ci ildə "Gənclik" nəşriyyatında işıq üzü görən "Əmək rəşadəti" adlı publisistik kitabı Tahir Kazımovun gələcəkdə istedadlı yazıçı kimi fəaliyyətinin konturlarını cızırdı.

O, ömrünün otuz ilini hüquq-mühafizə orqanlarında xidmətdə keçirsə də, qələmiyerə qoymur, gördüyü, eşitdiyi, şahidi olduğu olaylar haqqında kiçik qeydlər aparırdı. Sonradan yaradıcılıq təxəyyülündən keçirdiyi həmin hadisələrə bədii don geydirib bir-birindən maraqlı nəsr əsərləri nəşr etdirdi. Beləliklə, hələ daxili işlər orqanında işlədiyi vaxtlarda "Səsin sehri", "Qəfil ezamiyyət" "Qisas", "Taleyin qisməti beləymiş yəqin" və s. sanballı povest və romanları yüksək tirajla çap olunaraq oxucular tərəfindən böyük rəğbətləqarşılandı.

Sonradan "Səsin sehri" povesti xalq artisti Ağakişi Kazımov tərəfindən səhnələşdirildi, milli dramaturgiyamızın mövzu baxımından zənginləşməsində mühüm rol oynayan bu pyes uzun müddət Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində müvəffəqiyyətlə oynanıldı. "Taleyin qisməti beləymiş yəqin" dörd hissədən ibarət olan romanın birinci kitabı isə Əməkdar incəsənət xadimi Bəhram Osmanovun rejissorluğu ilə ekran həyatı qazandı, on seriyadan ibarət olan bu televiziya filmi 1998-ci ildə "Sara" telekanalında nümayiş etdirildi. Həmçinin "Qisas" romanının ssenarisi əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin teleseriallların çəkilişinə ayırdığı vəsaitlə otuz iki seriyalı film çəkildi. 2014-cü ildə "Lider" telekanalında nümayiş etdirilən bu məşhur serial tamaşaçılar tərəfindən böyük maraqla izlənildi.

### Müqəddəs missiya

XX əsrin sonlarında Azərbaycan ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatında bir-birini izləyən qlobal təbəddülatlar, ictimai-siyasi sferada baş verən hərc-mərclik, torpaqlarımızın işğalı, ağır sosial qayğılar ədəbi prosesin ənənəvi nizamınıciddi şəkildə pozmuşdu. Ədəbi-estetik düşüncə çətin sınaqlar qarşısında qalmış, bu sahədə müşahidə olunan durğunluq uzun müddət davam etmişdi.

Yaradıcılığının məhsuldar dövrübelə ziddiyyətli mərhələyə təsadüf edən Tahir Kazımovun ən böyük arzusu ədəbi mühiti dirçəltmək, Azərbaycan nəsrinin 1960-1980-ci illərdə qazandığı şöhrətini yenidən özünə qaytarmaq idi. Bu vacib missiyanı öz üzərinə götürməyə cəhd göstərən yazıçıhüquq-mühafizə orqanlarından təqaüdə çıxdıqdan sonra ədəbi fəaliyyətini gənclik həvəsi ilə davam etdirmiş, bir nasir kimi potensialını, bədii imkanlarını bütünlüklə ortaya qoya bilmişdir.

Dövrün çağırışına cavab verməyə çalışan müəllif gecəsini gündüzünə qataraq çoxlu sayda hekayə, povest, roman, məktublar, gündəliklər qələmə almış, nəşriyyat, poliqrafiya və kitab satışının hələ nizamlanmadığı bir vaxtda cild-cild kitablar nəşr etdirmişdir. Bu zəngin kitablar aləmi söz sənətinə yeni canlanma gətirmiş, bütün diqqətin həyatın maddi tərəfinə yönəldiyi müasir dövrdə bədii ədəbiyyata, mütaliəyə olan marağı yenidən qaytarmışdır.

Tahir Kazımovun zəngin bədii irsi əsasi Cəmşid Əmirov tərəfindən qoyulmuş milli detektiv ədəbiyyatın inkişafında mühüm rol oynamışdır. Müasir detektiv janrın təkamülünə təkan verən yazıçının "Qisas", "Mənəvi xilaskar", "Cəhənnəmə aparan yol", "Yeni Orlean "şənlikləri" və s. povest və romanlarının timsalında milli detektiv nəsr klassik üslubdan mürəkkəbə doğru inkişaf etmiş, mövzu dairəsini genişləndirərək yeni məzmun çalarları, unikal obrazlarla zənginləşmişdir. Özündən əvvəlki "polis detektivi" ənənələrini yaradıcılıqla davam etdirən ədib zamanın tələbinə uyğun olaraq yüksək dinamika nümayiş etdirmiş, geniş miqyaslı hadisələrin təsvirini əks etdirən maraqlı əsərlər qələmə almışdır.Əsas leytmotivi hüquq-mühafizə orqanlarının cinayətkarlığa qarşı apardıqları mübarizə təşkil edən bədii nümunələrdə qatı cinayətlərin görünməyən izləri incə ustalıqla açılır, cinayətkarlığa qarşı mübarizə fonunda insana məhəbbət, ədalət prinsipi aşılanır.

Tahir Kazımov Azərbaycan ədəbiyyatında lirik povest və romanlar müəllifi kimi də tanınır. Onun bu istiqamətdə qələmə aldığı "Sənsiz səninlə", "Biganəymişsən", "Ürək fəryadı", "Əsirlik düşüncələri", "Sənin olmuşdum" və digər nəsr əsərləri ilə yanaşı, məşhur "Gecikmiş məktublar" povesti də yazıçıya böyük sənət uğuru bəxş etmişdir. Yüksək bədii-estetik məziyyətləri ilə seçilən "Gecikmiş məktublar" yazıçının uşaqlıq çağlarının acı xatirələrini qələmə almaq, bu qəmli təəssüratları üzünü heç vaxt görmədiyi atası ilə bölüşmək yanğısından doğmuşdur. Qəlbin dərinliklərindən süzülüb gələn, kədərli notların tərənnümünə geniş yer verən əsərdə müəllif ömrün müxtəlif illərinə məhrəm duyğularla səyahət edir, bu rəngarəng lövhələr fonunda yazıçının ağrılı uşaqlıq illəri, gizli mənəvi-ruhi aləmi, dünyaya baxışı sərgilənir. Bu canlı təsvirlər, səmimi etiraflar ədibin həyat yolunu, mənəvi keyfiyyətlərini dolğun çalarlarla oxucuya çatdırır, müəllif-oxucu arasındakı mənəvi bağları möhkəmlədir.

Tahir Kazımovun yaradıcılığında tarixi yaddaşa müraciət də poetik potensialı ilə diqqət çəkir. Ədibin estetik amalının təməlində klassik dəyərlərə güclü bağlılıq olduğundan keçmişin miqyaslı hadisələrinə şövqlə müraciət edir, qələmə aldığı tarixi romanlarda xalqımızın etnoqrafik yaddaşını, görkəmli şəxsiyyətlərin obrazlarını müxtəlif aspektlərdən bədii təhlil müstəvisinə çəkir.

### Vətən sevgili nəsr

Tahir Kazımov qəlbində böyük Vətən sevgisi gəzdirən, yenilməz vətənpərvər ruhlu mübariz ziyalı idi. O, Qarabağda seperatçı qüvvələrin fəallaşdığı, mənfur qonşularımızın torpaq iddialarını irəli sürdüyü ilk vaxtlardan bu məkrli əməllərə qarşı barışmaz, prinsipial və qətiyyətli mövqe nümayiş etdirmiş, həmçinin Ağdam, Əsgərən, Cəbrayıl, Hadrut, Füzuli zonalarında gedən döyüşlərdə iştirak etmişdir.

Qarabağ müharibəsi veteranı olan Tahir Kazımovun kövrək qəlbi əsirlikdə qalan doğma yurdu Cəbrayılın, Soltanlı kəndinin həsrəti ilə uzun illər alışıb-yanmış, bu böyük kədəri ürək ağrısı ilə vərəqlərə köçürərək ermənilərin məkrli niyyətlərini, soydaşlarımıza qarşı törətdikləri dəhşətli cinayətləri ifşa etmişdir. Ədibin üç kitabdan ibarət olan "Müsibət" romanı dövrün dramatizmini bütün mürəkkəbliyi ilə bədii təhlil obyektinə çevirməklə yanaşı, Qarabağ hadisələrinin mahiyyətini dolğun şəkildə ortaya qoyur. Yazıçı altı kitabdan ibarət "Talelərini özləri yazanlar" adlı roman-epopeyada təkcə milli məxəzlərə deyil, Türkiyə, Rusiya və digər ölkələrin tarixi mənbələrinə istinad edərək müxtəlif zaman kəsiyində erməni xəyanətini həm bədii, həm də tarixi baxımından oxucuya çatdırmağa cəhd göstərmişdir.

Tahir Kazımovun bədii yaradıcılığı ədəbi ictimaiyyətin, tanınmış ədəbiyyatşünas alimlərin diqqətini çəkmiş, müxtəlif aspektli elmi araşdırmalara rəvac vermişdir. Möhsün Nağısoylu, İsmayıl Kazımov, İlhamə Hacıyeva, Şakir Albalıyev, Könül Niftəliyeva, Sevinc Beydulla qızı və digər alimlərin bu barədə qələmə aldıqları məqalələrin başlıca mövzusu ədibin ayrı-ayrı bədii nümunələrinə müxtəlif səpkili elmi yanaşmalardan, maraqlı mülahizələrdən ibarətdir. Professor İsmayıl Babaşoğlunun "Yazıçı: Müasir həyat və gerçəkliklər" adlı kitabında yazıçının nəsr yaradıcılığı daha geniş şəkildə tədqiqata cəlb olunmuş, ədibin romanlarının poetikası, sənətkarlıq məziyyətləri, dil-üslub xüsusiyyətləri müasir baxış bucağından səciyyələndirilmişdir. "Yazıçı yaradıcılığı ədəbi-tənqid müstəvisində" kitabında isə Tahir Kazımovun bədii yaradıcılığı haqqında tanınmış ədəbiyyatşünas tədqiqatçıların müxtəlif illərdə qələmə aldıqları məqalələr və oxucu məktubları yer almışdır.

Əməkdar Mədəniyyət İşçisi Tahir Kazımovun ədəbiyyat qarşısında səmərəli fəaliyyəti layiqincə qiymətləndirilmiş, ədib "Türk ədəbiyyatına xidmət","Qızıl qələm", "Şərəf", "Araz", "Ömər Faiq Nemanzadə", "Kino xadimi", "Qrand" mükafatları və fəxri diplomlara, Birləşmiş Millətlərin İctimai Mükafat Şurasının Beynəlxalq Mükafat Birliyi tərəfindən "Şərəf və Ləyaqət" ordeninə, Təbiət Elmləri Avropa Akademiyasının (Hannover şəhəri) qəyyumlar və elmi şurasının rəyi ilə "Şiller" medaldiplomuna layiq görülmüşdür.

***P.S.Aprel ayının 27-də sevimli yazıçımız Tahir Kazımovun 80 illiyi tamam oldu. Təəssüf ki, Tahir müəllimin budəfəki yubileyini xoş hisslər, sevinc dolu məqamlarla qarşılaya bilmədik. Taleyin amansız hökmü ilə bu əlamətdar günü onsuz qeyd etməli olduq.***

***O, bu ilin mart ayında Haqq dünyasına qovuşub cismən bizdən ayrılsa da, həyatda gördüyü xeyirxah əməllər, Azərbaycan ədəbiyyatına bəxş etdiyi dəyərli töhfələr, əsl ziyalılıq simvolu kimi parlayan nurani siması, işıqlı xatirəsi heç vaxt unudulmayacaq, doğmalarının, oxucularının qəlbində əbədi olaraq yaşayacaq. Tahir Kazımovun əziz xatirəsini yüksək ehtiram, dərin minnətdarlıq hissi ilə yad edir, onun ruhu qarşısında baş əyərək Uca Yaradandan bu unudulmaz yazıçımıza qəni-qəni rəhmət diləyirik.***

*Sadiq ZAMAN,*
*yazıçı-publisist*